

# O, ALLAHA QARŞI İXLASLI İDİ

## Şəhid Muhamməd İbrahim Himmətdən xatirələr

# Mündəricat


**Muhəmməd İbrahim** ... **2**
**Bir yerdə qərar tutmurdu** ... **4**
**Əsgərlik, mətbəx və zabit** ... **5**
**Atanızı yandırarıq** ... **6**
**İnqilab qələbə çaldı** ... **7**
**Sona qədər varıq** ... **8**
**Sonradan məlum olacaq** ... **9**
**Tapdım onu** ... **10**
**Sona qədər sözündə durdu** ... **11**
**Nişan üzüyü** ... **12**
**Zifaf gecəsi** ... **13**
**Bütün həyatımız imtahandır** ... **14**
**Sən haqlısan** ... **15**
**Hikmətli moizə** ... **16**
**Fikrin rahat olsun** ... **17**
**Kədər və qəm** ... **18**
**Aya bax** ... **19**
**Bəs nə bilmişdin?!** ... **20**
**Səngər havaya uçdu** ... **21**
**Ciddiyət** ... **22**
**Qorxursan məgər?!** ... **23**
**Halal et** ... **24**
**Sabah yeyərəm** ... **25**
**Arzuma çatdım** ... **26**
**Bəsicilərin aşiqi** ... **27**
**Kişilik et, gəl!** ... **28**
**Namaz qılmağa gəldim** ... **29**
**Pulunu cibinə qoy** ... **30**
**Bunlar nə düşünürlər?!** ... **31**
**12-13 yaşlı bəsicilər** ... **32**
**Özündən getdi** ... **33**
**Ordu komandirinin yuxusu** ... **34**
**Sadəcə ağlayırdı** ... **35**
**313 nəfər** ... **36**
**Sonuncu moizə** ... **37**
**Salam olsun bu simalara** ... **38**
**Hacı gəlmədi** ... **39**
**Başsız bədən** ... **40**
**Necə şəhid oldu** ... **41**
**Ləyaqətli övlad** ... **42**
**Vəsiyyətnamə** ... **43**



**Muhəmməd İbrahim**

**| Şəhidin anası |**

1954-cü ilin payız fəsli idi. Yoldaşım və yaxınlarımız ilə İmam Hüseynin (ə) ziyarətinə getməyi niyyət etdik və Kərbəlaya yola düşdük. O zamanlar İbrahimə hamilə idim. Çoxları bizi bu səfərdən yayındırmaq istəyirdi, amma Allaha təvəkkül etdik və şövq ilə Əba Əbdillahın ziyarəti üçün Kərbəlaya yola düşdük.

Kermanşaha qədər avtobus ilə gəldik və oradan Xosrəvi sərhəddinə getdik. Torpaq yol tökülmüş maşın ilə çox çətin və yorucu idi. Səhəri gün sübh İraq sərhəddinin əsgərləri icazə verdilər ki, hərəkət edək. Hava çox isti və yollar maneələrlə dolu idi. Digər tərəfdən də maşının içinə dolan toz-torpaq yavaş-yavaş halımı dəyişirdi. Bütün günü yolda idik və nəhayət qürubdan əvvəl Kərbəlaya çatdıq.

Gözlərim qaralır və halım tamamilə pisləşirdi. Əziyyətlə bizi bir həkimin yanına apardılar. Həkim müayinədən sonra dedi: Uşaq tələf olub. Bir miqdar dəva-dərman yazdıqdan sonra bildirdi ki, əgər uşaq bunlarla düşməsə mütləq yanıma gəlin ki, əməliyyatla götürüm.

Həkimin sözləri daş kimi başıma çırpıldı. Çox narahat və qəlbi sınıq olmuşdum. Yoldaşım Əli Əkbər hərəmin ətrafında bir ev kirayə götürmüşdü və mən 15 gün sadəcə evin bir küncündəki yataqda yatdım. Dilimə də heç bir dərman vurmadım.

Ürəyim çox sıxılırdı. Əli Əkbərə dedim ki, hərəmə getmək istəyirəm. Amma o etiraz etdi və dedi: Halın münasib deyil, çoxlu istirahət et ki, tam sağlamlığına qovuşasan.

Hər nə qədər israr etsə də faydası olmadı. Getdikcə hərəmin istəyi daha da artırdı və artıq evdə qalmağa taqətim yox idi.

Nəhayət Əli Əkbər məni hərəmə apardı. Gecə yarısına qədər orada qaldıq. Sınmış qəlb ilə İmamı səslədim və ondan şəfa istədim. İmam Hüseynə (ə) dedim ki, Ağacan mən şəfamı səndən istəyirəm, həkimlə işim yoxdur. Mən sizin görüş və ziyarətiniz üçün bütün çətinlikləri gözə aldım, indi də sizdən mənə nəzər etməyinizi xahiş edirəm.

Biraz yüngülləşdim və evə qayıtdıq. Yorulmuşdum, yuxum gəlirdi və yatdım. Yuxuda ərəb libası geyinmiş bir xanım gördüm. Hər kəs kimi İmamı ziyarət edirdi. Uca boy olan o xanım əlində olan körpə ilə mənə tərəf gəldi və uşağı mənə tapşırıb dedi: Bu uşağı çadranın altında saxla və heç kəsə vermə. Götür və get.

Mən uşağı gizlətdim və gəldim. Həmin an yuxudan ayıldım. Ağlamaq tutmuşdu məni, sevincdən gözyaşlarına qərq olmuşdum. Yuxunu Əli Əkbərin anasına danışanda, bu yuxu bir nişanədir dedi və əlavə etdi ki, arxayın olun, bu uşaq salamatdır, sadəcə niyyət edin ki, əgər uşaq oğlan olsa adını Muhəmməd İbrahim qoyasınız. O gündən sonra daha heç bir ağrı-acım olmadı. Heç kəs buna inanmırdı. Yenidən həkimə getdik. Həkim müayinədən sonra təəccüblə dedi: Mümkün deyil, burda mütləq bir möcüzə olub. Biz ərəb dilini bilmirdik və həkimin dediklərini bizim üçün dostlardan biri tərcümə edirdi. Həkim soruşdu: Siz hara gedib dərdinizə dərman tapdınız? Bu hansı təbibin işidir? Bu zamana qədər həm ana, həm də uşaq həyatda olmamalı idi. Ən azından uşaq dünyadan getməli idi. Siz nə etdiniz? Əli Əkbər dedi: Biz əsil təbibin yanına getdik. Həkim eşidəndə ki, İmam Hüseyn (ə) şəfaət edib, bütün yoxlanış və dərman pullarını qaytardı və inkişaf üçün bəzi dərmanlar da yazaraq dedi:

-Özünüzdən müğayət olun...

Uşağın sağlamlığından əmin olduqdan sonra Əli Əkbərdən istədim ki, Kərbəlada qalaq. İrəli gələn bu məsələlərdən sonra buradan ayrılıb getmək çox çətin idi. Bir neçə dəfə icazə müddətini artırdıq və 4 ay sonra İrana qayıtdıq.

1955-ci il, Aprel ayının 2-i oğlumuz dünyaya gəldi. Özü də nə oğul! Düzdür ki, övladlar arasında fərq yoxdur, amma bu başqalarından fərqlənirdi. Gözəl, sakit, sevimli və hamısından mühüm olanı İmam Hüseynin (ə) nəzər etdiyi bir oğlan. Gördüyüm yuxuya görə dünyaya gəldiyi zaman adını Muhəmməd İbrahim qoyduq...



**Bir yerdə qərar tutmurdu**

**| Şəhidin anası |**

İbrahimin əxlaqi xüsusiyyətlərindən nə desəm azdır. O uşaqlıqdan evdə eynən Quran kimi idi. Sübhlər oyatmaq istəyərkən bir öpüşlə oyadırdım. Bəzi vaxtlar atası etiraz edirdi ki, daha öpmə, İbrahim artıq böyük oğlandır.

3 ay yay tətili zamanı küçəyə çıxıb uşaqlarla oturmur, ‘vaxtımı niyə hədər edim, mən usta yanında sənət öyrənmək istəyirəm’ deyirdi.

Deyirdik, axı bizə yaraşmaz sən gedib əl altında işləyəsən, axı kimin yanında işləyəcəksən? Cavab verirdi ki, gedib bir meyvə satanın əli altında işləyəcəm. Gedirdi və o qədər işləyirdi ki, gecə evə qayıdan zaman daha taqəti qalmırdı. Ona deyirdim axı sənə kim deyib ki, özünə bucür həlak edəsən? Cavab verirdi ki, işləmək də bir növ ibadətdir, axı kimdir zəhmət çəkib iş görməyən? Hz.Əli (ə) nə qədər zəhmət çəkirdi, quyu qazırdı, ağac əkirdi. Məgər biz bu dünyaya sadəcə yeyib yatmaq üçün gəlmişik?!...

Bu uşağın aramlığı yox idi, mən evdə olmadığım zamanlarda süpürgəni götürüb evi süpürürdü, ya da kirli paltarları yuyurdu. Elə bir əxlaqı var idi ki, hər zaman hər kəs ondan razı qalırdı.



**Əsgərlik, mətbəx və zabit**

**| Şəhidin atası |**

Həmişə deyirdi: Bu iki il əsgərlik günləri ömrümün ən pis günləri oldu. Bunu təqva cəhətindən deyirdi.

Əsgərlik dövründə fərasətinə görə mətbəxdə müdir olmuşdu. Özü danışırdı ki, Ramazan ayı idi, mən mətbəxdəkilərə dedim ki, əsgərlər üçün imsak hazırlasınlar. Təxminən 300 nəfərlik. Zabitlərdən biri bu hadisədən xəbərdar oldu və sübh əmr etdi ki, bütün əsgərlər sıraya düzülsünlər. O su gətirmişdi və əsgərləri məcbur edirdi ki, hər kəs bir-bir su içsin. O gün hər kəsin orucu batil oldu və mən ömrümdə belə bir dinsizlik görməmişdim. Allaha dedim: İlahi, əgər biz sənin üçün oruc tuturuqsa, bu dinsiz burda nə danışır? İlahi, Özün onun bəlasını ver və Allah da onun bəlasını verdi...

Növbəti gün əmr etdim ki, mətbəxi hər tərəfli təmizləsinlər. Mətbəxin giriş hissəsi təmizləndikdən sonra getdim yağ gətirdim və mətbəxin girişinə tökdüm.

Bilirdim ki, həmin zabit imsaka yemək bişməməsindən əmin olmaq üçün mütləq ora nəzarətə gələcək. Elə də oldu. Gəlib yeməyin bişmədiyini görüb rahat oldu, qayıdan zaman elə möhkəm sürüşdü ki, yıxıldı və ayağı sındı. Onu xəstəxanaya apardılar və biz Ramazan ayı boyunca onun əlindən amanda qaldıq. Hər gecə əsgərlər üçün imsak hazırladıq və orucumuzu axıra kimi tuta bildik.



**Atanızı yandırarıq**

**| Şəhidin atası |**

Əsgərliyini bitirdikdən sonra, universitetə imtahan verdi və Şəhrza şəhərində həkimliyə qəbul oldu. Əsgərlikdən öncə bədən tərbiyəsi müəllimliyini oxuduğu üçün universitet oxumaqla yanaşı ixtisası üzrə müəllimlik də edirdi. Yavaş-yavaş inqilabın genişlənməsi səbəbindən o da mübarizəyə qoşuldu. Hara gedirdisə şahın əleyhinə danışırdı və 4 ay sonra universiteti də tərk etdi.

Deyirdi: Biz gərək elə işlər görək ki, şah məğlub olsun. İş o yerə çatdı ki, o və dostları şahın heykəlini şəhərin mərkəzində aşırıb dağıtdılar. Şöbənin polisləri millətin ayağa qalxdığını görüb qorxudan qapıları bağladılar və bayıra çıxmadılar. Həmin gün onun əmri ilə xalq şöbəyə hücum edib nəzarəti ələ keçirdi və polislərdən bir neçəsini əsir götürdü.

Bölmədən özləri ilə çoxlu sənədlər gətirmişdilər. Hətta İbrabimin edam fərmanını da onların içində gördük. Onların işləri o qədər səs-küyə səbəb oldu ki, dövlətin ordu generalı belə elan etdi: Bunlar Şəhrza şəhərində elə bir cinayət törədiblər ki, etdikləri cinayətin böyüklüyünün həddi-hüdudu yoxdur...

Həmin gün İbrahim mənlə üzbəüz oturmuşdu və generalın çıxışını izləyərək deyirdi: Bu “cinayəti” ki, biz Şəhrzada törətmişik, gəlib İsfahanda da törədərik və atanıza od vurarıq! Kişiliyiniz varsa durun gəlin!...



**İnqilab qələbə çaldı**

**| Şəhidin atası |**

Şahın heykəlinin endirildiyi günün sabahı İbrahimin dostlarından biri xəbər gətirdi ki, sabah şahın ordusu Şəhrza şəhərini mühasirəyə alacaq və kütləvi həbslər başlayacaq. İbrahim ona dedi: Əgər qorxursansa get evə yat, bu məsələlərlə də işin olmasın.

Hər kim ki, İbrahimin yanında idi, onları bir yerə topladı və dedi: Gedin çay daşları toplayıb gətirin. Çoxlu miqdarda çay daşı yığıldı, sonra dedi: Yollarda, küçələrdə durun və bu daşları da özünüzlə aparın. Evinizin qapısını da açıq qoyun ki, əsgərlər hücum etdikləri zaman evlərə girə biləsiz və qapıları üzlərinə bağlayasız. Hər kəs küçələri doldurdu. O günün sabahı ordu gəldi və əsgərlər Taliqani meydanına toplandılar. Sonra isə hər yerdə qərargah qurdular.

Millətlə əsgərlər arasında möhkəm qarşıdurma başladı və millət daşlarla əsgərlərin üstünə tökülüşdü. Daşlarla başlarına elə bir bəla gətirdilər ki, cavab olaraq əsgərlər atəş açırdılar. Əsgərlərdən üçü əsir alınmışdı. Çarəsiz əsgərlər yalvarırdılar ki, bizi öldürməyin. Deyirdilər: Əgər bura gəlməsəydik, bizi edam edəcəkdilər. Camaat onların silahlarını aldı və özlərini də buraxdı. Artıq günorta saat ikidə əsgərlərdən əsər-əlamət qalmamışdı, hamısı getmişdilər. Bir müddət sonra isə İmam Xomeyni gəldi və inqilab qələbə çaldı.



**Sona qədər varıq**

**| Məcid Hamidi-Şəhidin dostu |**

Nosud bölgəsində Şeyxan adlı məntəqəni ələ keçirməli idik. Qış idi, 4-5 dəfə cəhd etdik, amma müvəffəq olmadıq. Bundan öncəki əməliyyatlarda da müvəffəq olmamışdıq. Gedirdik, uduzub geri qayıdırdıq. Ordunun vəsailləri az idi. Hava da bir tərəfdən işimizi çətinə salırdı. Hamı yorğun idi və daha qabağa gedə bilmirik deyirdilər. Hacı hər zamanki kimi həlim təbəssümlə söhbətinə başladı və dedi: Biz vəzifəmizə əməl etməyə məs’uluq. İndi əgər bu yolda şəhid də olsaq, olmuşuq... Məgər siz fələstinli gənclərdən əksiksiniz ki, onlar 35 dəfə hücum etmiş və məğlubiyyətlərinə rəğmən yenidən əməliyyata başlamışdılar?!... Bir neçə belə həyəcanlı  misallar gətirdi və söhbətinin sonunda hər kəs dedi: "Sona qədər varıq!".

Bu yolla Hacı ordunun ruhiyyəsini qaldırdı. Getdik və müvəffəq olduq. Fikrimizdə olan hədəfimizə də çata bildik...



**Sonradan məlum olacaq**

**| Məcid Hamidi-Şəhidin dostu |**

Nudəşəni azad etdikdən sonra, Himmətin işlərindən biri də o şəhərdə hərbi təlim tədris etmək idi. Şəhərin mərkəzində stadion düzəltdi və dedi: Hər kim bəsici olmaq istəyirsə bura gəlsin. Bir vəziyyət yaratmışdı ki, gəl görəsən... Güllələrin səsi bir an belə olsun kəsilmirdi. Hər kəs etiraz etməyə başladı, amma Hacı onların cavabında deyirdi: Səbr edin, hələ sonra məlum olacaq ki, mən nə etməkdəyəm. Şəhərdə olan hər kəs gəlib əlinə bir silah alırdı, onu səmaya və ya boş taxtaya boşaldırdı. Sanki hansısa problemlərini həll edirdilər. Əksəriyyət tibbi yoxlanışa gəlir və silah atırdı. Artıq istirahətimiz də yox idi.

Hacıya dedik: Səs küy məsələsini qoyaq bir kənara, bunlar gəlib beytul-malı yox edirlər. Sizin bu işinizin şər'i baxımdan da müşkülü var. Himmət dedi: Mən bir şey bilirəm ki, siz onu bilmirsiniz. Dedik: Necə yəni? Bu sözlər nə məna daşıyır? Dedi ki, bunlar hamısı silaha susayıblar. Bəlkə silaha görə özlərini də satarlar və o tərəfə də keçərlər. Susuzluqları yatsın, özləri yorulub əl çəkəcəklər.

Bir ay keçməmişdi ki, şəhər sakitləşmişdi və hərdən bir güllə səsi eşidilirdi. Hacı Himmət uzaqgörənliyi və huşyarlığı sayəsində həqiqətən döyüşmək istəyənləri ortaya çıxarmışdı və döyüşdə bunun nəticəsini də gördük...



**Tapdım onu**

**| Şəhidin atası |**

Ona dedim: Evlənmək istəmirsən?

Dedi: Niyə istəmirəm? Təəccüb etdik. Evlənməyi bu qədər asan qəbul edəcəyini düşünməmişdik.

Anası dedi: Ana qurban kimi istəyirsən? De sənin üçün alım. Dedi: Mən elə bir xanım istəyirəm ki, mənimlə maşının arxasında belə yaşaya bilsin.

Anası dedi: Bu nə deməkdir? Maşının arxası nədir? Dedi: Bu o deməkdir ki, yəni mən qabaqda oturam, o da arxada yaşaya.

Anası dedi: Ana qurban, axı hansı qız belə yaşamağı qəbul edər?

Dedi: Əgər evlənməyimi istəyirsinizsə şərtim budur.

Əvvəl düşündük ki, yəqin yaşamaq üçün evi olmadığından belə deyir. Qardaşı ilə birlikdə onun üçün ev tikdik və dedik: Biz sənin üçün bu şəhərdən qız alacağıq, bu da evin. Sən hara getmək istəyirsənsə, get işlərini həll et.

Dedi: Mən elə bir xanım istəyirəm ki, hara gedirəmsə gedim, arxamca gəlsin! Himmətin sözü bir kəlmə idi...

Bir müddət sonra Pavədən gəldi və dedi: Axtardığım insanı tapdım. Ona dedim: Bu qədər asan? Dedi: Yox, o qədər də asan olmadı. Əvvəl məni biçarə etdi, sonra hə dedi. Dedim: Yəni səninlə maşın arxasında yaşamağı qəbul etdi? Güldü və dedi: O biri dünyaya belə getsəm, arxamca gələcək. Dedim: Mübarəkdir...

Himmətin bəyəndiyi xanım rahat yaşayışını buraxıb Kürdüstanda əziyyət çəkənlərə yardım üçün könüllü gedən universitet tələbələrindən idi...

Hacı bir neçə dəfə ona elçilik etmiş, amma mənfi cavab almışdı. Sonra niyyət edibmiş ki, 40 gün oruc tutub, təvəssül duasını oxusun və müsbət cavab alsın. Tam 40-cı gecə Hacı yenidən elçilik etmiş və müsbət cavab almışdı...



**Sona qədər sözündə durdu**

**| Şəhidin qardaşı |**

Elçiliyə getdiyimiz gün, bütün məsələlər danışılıb bitdikdən sonra anam dedi: Bir şərtimiz də var. Gərək İbrahim siqaret çəkməyəcəyinə söz verə... Anam bunu deyən kimi, İbrahim özünü toparladı və gözünü anamla mənə zillədi. Xanımı bunu eşidib dedi: Mücahid, Allah yolunda cihad edən biri siqaret çəkməməlidir. Siqaret çəkmək sizin şə'ninizə yaraşmaz...

Himmət qayıdarkən yolda bizə sarı döndü və dedi: Siz niyə görə bu mövzunu açdınız? Olmazdı ki, deməyəydiniz?

O soyuqdəyməsi olmasına baxmayaraq motosiklet sürürdü. Buna görə də qaymoriti tuturdu və siqaret çəkirdi ki, başının ağrısı azalsın... Dedi: Bilmirsiniz ki, mən qaymoritim var deyə siqaret çəkirəm? Bilmirsiniz ki, başım ağrıdığı üçün siqaret çəkirəm? Dedim: Deməyimiz lazım idi. Gərək sənin barəndə hər şeyi bilsinlər.

Evə çatan kimi əlini cibinə aparıb siqareti çıxardı və hamısını ayağının altına töküb əzdi. Sonra da dedi: Bu da siqaret. Artıq heç kim mənim əlimdə siqaret görməyəcək.

Himmət sona kimi sözünün üstündə durdu və şəhid olduğu günə qədər siqaret çəkmədi...



**Nişan üzüyü**

**| Şəhidin xanımı |**

İbrahim mənə dedi: Mən nişan üçün platin və ya qızıl üzük istəmirəm, əgər məsləhət bilirsinizsə sadəcə əqiq qaşlı üzük alın. 150 tümənlik əqiq qaşlı üzük götürdük. Atam buna etiraz etdi və dedi: Bizim üçün ayıbdır axı kürəkənimizə 150 tümənlik üzük verək. Sən bizim abrımızı apardın. Dedim: Nə olub məgər?

Dedi: Axı kim indiyə qədər kürəkəni üçün 150 tümənlik nişan üzüyü alıb? Ayıbdır ata qurban, gülərlər adama. İbrahim bizə zəng edərkən mövzunu ona danışdım, o da atamla söhbət etdi. Ona dedi: Cənab Bədihiyan, bu üzük belə mənim üçün çoxdur. Siz dua edin ki, mən bu üzüyün haqqını ödəyə bilim, sonrası Allahın işidir.

Sözünün üstündə də durdu. Hər zaman və hər bir şəraitdə üzük barmağında olurdu. Həmişə diqqəti üzərində idi. Əməliyyatların birində üzüyü sındı, getdi həmin üzükdən yenə aldı. Güldüm və dedim: Niyə görə israrla eyni üzüyə təkid edirsən?!... Niyə bu üzüyə qarşı belə diqqətlisən?!... Dedi: Nişan üzüyü həyatda bir qadının əri üzərindəki və bir kişinin xanımı üzərindəki kölgəsidir. Mən istəyirəm ki, sənin kölgən daima üzərimdə olsun. Bu üzük həmişə ən tənha olduğum vaxtlarda səni mənim yadıma salır və mənim ona ehtiyacım. Başa düşürsən bu nə deməkdir?!...



**Zifaf gecəsi**

**| Şəhidin anası |**

1982-ci il idi. İbrahim və yoldaşı sadə bir geyimdə əqd masasına oturdular. İsfahanın cümə axundu onların əqdlərini oxudu. Mehriyyə bir Qurani-Kərim, bir Nəhcül-Bəlağə və 27 tümən pul idi. Əcəb bir gecə idi...

Mən atası ilə otaqda oturmuşduq və birdən onun ağlamaq səsinin fərqinə vardıq. Zar-zar ağlayırdı. Ürəyim dözmədi, qalxdım və gedib gördüm ki, səccadəsini bir küncə sərib, öz Allahı ilə razu-niyaz edir. Hər nə qədər etsəm də üzüm gəlmədi deyəm ki, ana qurban, iltimasi-dua...

Gecə saat 11-dən sübh saat 5-ə qədər ahu-nalə ilə bu zikrləri dediyini eşidirdim: İlahı əl-əfv, İlahi əl-əfv, İlahi əl-əfv...

Səhər gəldi yeməyini yedi. Sonra isə yoldaşı ilə Şəhrza şəhərinin şəhidlər xiyabanına getdilər, şəhidləri ziyarət etdikdən sonra ziyarət üçün Qum şəhərinə və ordan da Pavə şəhərinə yollandılar.

Qarşıda bir əməliyyat olacaqdı və bacardığı qədər özünü ora tez çatdırmalı idi.



**Bütün həyatımız imtahandır**

**| Şəhidin xütbəsindən |**

Allah üçün yaşayır və sadəcə Allah üçün cihad edirik. Mömin olan şəxs əgər bu yolda bir anlıq ümüdsizlik etsə, həmin an onun üçün küfr və şirk hesab edilər. Çünki, bizim bütün vücudumuz, bütün qüdrətimiz və varlığımız Onun əlindədir. Hər zaman Ona ümidvar olmalı və yalnız Ona təvəkkül etməliyik. Bu səhnə hər zaman imtahan səhnəsidir. Bu həyatda 20 il, 30 il, 40 ya 50 il yaşayır, axırda da ölürük. Bu 5 günlük dünyada ömrümüzün hər anı və hər saniyəsi bir imtahandır. Qələbə var, məğlubiyyət var, çətinlik var, asanlıq var, hər şey var. Amma hər şeydən əvvəl bir məsələ var ki, o da Allahın imtahanıdır.

Allahın əlində Səddamı yer üzündən silmək bir anlıq işdir. Lakin Allah Səddamı küfrü ilə, biz möminləri isə imanımızla imtahan edir. Necə ki, İraq ilə müharibəmizdə imanımızdan savayı heç nə bizi düşmənə qalib etmir.

Ləvazimat cəhətindən zəifik, imkan cəhətindən zəifik və hər nə qədər şeytan və şeytan üzlülər varsa Səddamın arxasındadırlar. Bizim isə Allahdan qeyri heç kimimiz yoxdur...



**Sən haqlısan**

**| Müctəba Əsgəri-Şəhidin Dostu |**

Hacı ilə birlikdə səngərdə oturmuşduq ki, anidən bir nəfər qışqır-bağır ilə içəri girdi və hər kəsin önündə Hacının üstünə qışqırdı. Sözünü kəsdim və dedim: Ey ağıllı! Bu nə sözlərdir deyirsən? Düzgün danış, ordu komandiri ilə söhbət etməkdəsən. Fərz edək ki, düz söz deyirsən, yenə də Hacı ilə bu tərzdə danışmaq doğru deyil. Mənə ‘sən kimsən, otur yerinə!’ dedi və yenidən sözlərinə davam etdi.

Bir məsələ ilə bağlı etiraz edirdi və Hacını günahlandırırdı ki, niyə həmin məsələyə diqqət etmir. Hacının başına qışqırdığı müddətdə, Hacı heç bir reaksiya vermədən sakit və aram oturub onun sözlərinə qulaq asırdı. Ən axırda kişinin sözü bitdikdən sonra ona dedi: Siz haqlısınız, narahat olmayın, emosiyalarınızı da idarə etməyi bacarın, mən mütləq hadisəni araşdıracağam. İnşallah düzələr.

Hacının özünü necə idarə etməsi, ədəb və aramlıqla cavab verməsi hamımıza bir dərs oldu...



**Hikmətli moizə**

**| Şəhidin xanımı |**

Həsən Baqiri və Məcid Bəqayinin şəhadətinin 3-cü günündə moizə etmək üçün Hacını dəvət etmişdilər. Tribuna arxasına keçib mikrafonu götürdü və söhbətə başladı. Qəribə bir halı vardı. Gözləri parlayırdı və bütün vücudu ilə şəhadətdən danışırdı. Əllərini elə tərpədirdi ki, izləyicilər onun bütün ağrı-acısını hiss edirdilər. Səsində qəribə bir hüzn vardı-dərd ahəngi kimi, amma ixlaslı...

Şəhidlərdən danışan zaman, vücudu sıxıntılı, üzü qəmli idi. Cisminin bütün zərrəcikləri fəryad edirdi sanki. Möhkəm və ixlasla danışırdı. Belə deyirdi: Allah üçün yaşayıb və sadəcə Allah üçün etdiyimiz bu cihadda biz şəhid verməkdən qorxmuruq, bundan qorxuruq ki, Allah eləməmiş bir gün yolumuzda sarsılma əmələ gələr və bu qanlar haqsız yerə tökülmüş olar...



**Fikrin rahat olsun**

**| Şəhidin xanımı |**

Bir neçə gün əvvəl yuxu görmüşdüm və biraz narahat idim. Hacı gəldiyi zaman, yuxumu ona danışdım və dedim: Əgər mümkündürsə bir neçə gün qal, sonra get, çox narahatam. Qorxuram nəsə hadisə baş verər.

Hacı vacib bir əməliyyatın tədarükün gördüyü üçün güldü və dedi: Nigaran olma, ürəyin rahat olsun, başıma heç bir hadisə gəlməyəcək.

Mən hələ təqvada o həddə çatmamışdım ki, narahat olmayam...

Sonra bir məsələni mənimlə bölüşdü və dedi: Mən Məkkədə Allahdan istədim ki, əsir yox, şəhid olum...

Bu söhbətləri danışdığımız zaman müştərək həyatımızdan cəmi 27 gün keçmişdi...



**Kədər və qəm**

Vəlfəcr əməliyyatı elə bir əməliyyat idi ki, həmin əməliyyatda iştrak edən dəstə Hz.Zəhra övladlarının məzlumiyyətini və qəriblik qəmini nümayiş etdirirdilər. Əməliyyat Fəkkədə baş tutdu.

Fəkkənin ərazisi qumlu idi və ordu buranı keçmək üçün çox əziyyətə qatlaşmalı oldu. Bir tərəfdən də düşmən ən çətin maneələrdən istifadə etmişdi-tikanlı tellər, qorxulu tələlər və partlayıcı minalar... Bunlar hamısı ordunun keçəcəyi dərin kanallara yerləşdirilmişdi ki, döyüşçülərin qarşısını alsınlar.

Kumeyl taborunun əsgərləri düşmən tərəfə hücum etdikdən sonra kanalların birində problemlə qarşılaşdı və heç bir gediş-gəliş yolları qalmadı. Ordu komandiri də onlarla sadəcə ratsiya ilə əlaqə saxlaya bilirdi. Himmət bilirdi ki, gec ya tez yoldaşları orada şəhadətə çatacaqlar. Amma onlara təsəlli verməkdən və öz ürəyini yeyib bitirməkdən başqa əlindən heç nə gəlmirdi. Hər iki tərəf ratsiya ilə son ana qədər bir-birinə ürək-dirək verdilər...

Kumeyl taborunun əsgərləri yorğun halda, susuz dodaqlarla şəhadətə çatdılar. Himmətin üzündən qəm və kədər yağırdı. Dostlarına yardım edə bilməmişdi... Əlindən heç bir şey gəlmədiyi üçün dəli-divanəyə dönmüşdü.



**Aya bax**

**| Muhəmməd Cəvanbəxt-Şəhidin dostu |**

Müslüm ibni Əqil əməliyyatının gecəsi vəziyyət çox qarışıq idi və ordular şiddətli şəkildə əməliyyata hazırlaşmaqda idilər. Elə bu nigarançılıqda gözüm birdən Himmətə sataşdı. Gördüm ki, aram və sakit şəkildə səmaya baxıb ağlayır. Təəccüb etdim. Dedim mütləq Allahla razu-niyaz edir və dua edir ki, müharibədə qələbə çalaq. Nəhayət maraq bais oldu ki, sorağına gedim. Ondan soruşdum: Nə olub Hacı, niyə ağlayırsan? Səmaya işarə edib dedi: Aya bax. Aya baxdım və dedim: Hə, nə olub? Dedi: Ay an bə an uşaqlara yoldaşlıq edir. Onlar harda düşmənə görünərlərsə gedir buludların arxasına, sonra isə düşmənin görmədiyi yerdə, işığa ehtiyac olarkən gəlir və hər yeri işıqlandırır. Allahın lütfünün bizə necə şamil olduğunu görürsənmi? İndi başa düşürsən niyə göz yaşı tökürəm?

Bunları dedi və getdi. Bu qeybdən olan köməyi ratsiya ilə komandirlərə də çatdırdı. Onlara bulud ilə aya diqqət etmələrini tapşırdı. Sonrakı dəqiqələrdə onların ağlamaq səsi ratsiyadan eşidilirdi...



**Bəs nə bilmişdin?!...**

**| Səid Möhtədi-Şəhidin dostu |**

Əbuzər düşərgəsində bir FX rabitə xəttimiz var idi. İdarə ilə düşərgə arasında bu xətt vasitəsilə əlaqə yaradırdıq. Günlərin birində şıltaq zarafatları ilə tanınan Rza Dəstavər anidən söhbətə başladı. Dedi: İstəyirsiniz həmin bu telefonla kiməsə zəng edək? Abbas Kərimi dedi: Mümkündür məgər? Rza dedi: Əgər telefonu götürən zaman tərpətsən və bu tərpənişlərlə nömrəni yığsan mümkün olar. Hər tərpəniş bir nömrədir, məsələn 8 rəqəmini yığmaq istəyirsənsə telefonu 8 dəfə tərpədirsən və beləcə nömrəni yığırsan. Bir nömrə ver, sənin üçün yığım. Abbas bacısı evinin nömrəsini verdi. Rza telefonu tərpətməyə başladı, sonra dəstəyi qulağına tutub dedi: Alo, alo... Səs çox zəifdir, siz mənim səsimi eşidirsiniz? Sonra dəstəyi Abbasa verib dedi: Al bacınla danış, amma səs çox zəifdir, gərək ucadan danışasan. Abbas telefonu alıb dedi: Alo, alo... Sonra üzünü Rzaya tutub dedi: Bunun ki, səsi gəlmir. Rza dedi: Mömin, səs zəifdir, gərək ucadan danışasan. Abbas da ucadan danışmağa başladı: Alo, alo, səs gəlir? Yenidən Rzaya dedi: Bizi bekar görmüsən? Rza da onu yamsılayaraq, ‘bizi bekar görmüsən?’ deyib, ucadan gülməyə başladı. İndi gül ki, güləsən, hamımız gülürdük.

Elə bu an, telefon zəng çaldı. Rza gedib telefonu götürdü və dedi: Hacı Himmət, səni istəyirlər. Himmət dedi: Telefonu yerinə qoy ay uşaq. Rza dedi: Hacı öz canım üçün düz deyirəm, deyirlər vacib işləri var. Himmət dedi: Elə bilirsən məni də Abbas kimi aldadacaqsan? Yox, sənin xınanın mənim yanımda rəngi yoxdur... (Atalar sözü)

Getdim dəstəyi Rzanın əlindən aldım və gördüm ki, düz deyir, Nəcəf müdiriyyətindəndir. Dedim Hacı, Rza düz deyir. Hacı dedi: Siz nə fikirləşirsiniz? Yəni mən sizin sözünüzə inanacaq qədər sadəyəm? O qədər yalvardıq ki, axırda gəldi telefonu götürdü. Düz dediyimizi gördüyü zaman dedi: Bunu daha tez deyə bilməzdiniz?



**Səngər havaya uçdu**

**| Vəliyyullah Himmət-Şəhidin qardaşı |**

Hədsiz dərəcədə düşmənə yaxın idik. Hacı durbinlə İraqın Məndəli şəhərindəki hündürlüklərin ətəyini izləyib tanımağa çalışırdı.

Həmin anda düşmən bizim varlığımızdan xəbər tutdu və güllə-baran başladı. Birinci bomba bizdən 50-60 metr kənara düşdü. İkincisi 30 və üçüncüsü isə daha yaxına.

Üçüncü bombadan sonra, Hacı çox aramlıqla mənə dedi: Qalx gedək, indi səngərimizi vuracaqlar. Dərhal səngəri tərk etdik. Azca aralanmışdıq ki, bomba düz səngərin ortasına düşdü və səngər havaya uçdu.



**Ciddiyət**

**| Nüsrətullah Əkbəri-Şəhidin dostu |**

Hacı Himmət Tabor komandirlərinə çox əhəmiyyət verirdi. Amma işlərində ləngisəydilər, çox sərt olurdu. Deyirdi: Sizlər əməliyyatda mənim nümayəndəm və gözlərimsiniz. Yəni, əgər görsəniz ki, çıxış yolu yoxdur, gərək dərhal qərar alasınız.

Müvəffəq olmayan “Vəl Fəcr-1" əməliyyatında aydın oldu ki, asfalt yolu keçdikdən sonra, o biri tərəfdə durmuş tabor komandiri vəziyyəti məruzə etməyib və nəticədə müvəffəqiyyət hasil olmayıb.

Komandirə dedi: Niyə mənə xəbər etmədin? Əsəb və narahatçılıqdan gözləri qızarmışdı, qışqıraraq deyirdi: Məgər sən mənim tabor komandirim deyildin?

Tabor komandiri dedi: Əlaqə kəsilmişdi, ratsiya da işləmirdi, mənim təqsirim deyildi. Hacı dedi: Müavinlərdən kimisə göndərərdin, ya özün gəlib deyərdin. Mən də işimi bilərdim ki, başıma haranın külünü töküm.

Xeybər əməliyyatında tabor komandirlərindən birinə xəbərdarlıq edib demişdi: İşi qətiyyətlə bitirməlisən. İstəyirəm üzümü ağ edəsən. Bütün imkanlarını da ona verdi, amma o yenə də əməliyyatda müvəffəq ola bilmədi. Ratsiyada deyirdi: Hacı olmur. Hacı Himmət də qışqırıb deyirdi: Olmaz deyə bir şey yoxdur, olmalıdır! Oranı almamış geri qayıtdı yoxdur!

Komandir bir gün sonra qayıtdı. Hacı ona dedi: Niyə qayıtdın? Komandir dedi: Olmayanda olmur... Nə etdimsə alınmadı... Hacı Himmət onunla çox sərt danışdı və dedi: Səni göndərməklə əvvəldən səhv elədim... Sənin komandirlik ləyaqətin yoxdur. Elə indicə postu digərinə təhvil ver!



**Qorxursan məgər?!...**

**| İbrahim Səncəri-Şəhidin dostu |**

“Vəl Fəcr-3” əməliyyatı idi. Hacı istəyirdi ön xəttə baxsın. Deyirdi ki, özüm yaxından əməliyyatdan xəbərdar olmalıyam ki, vəziyyəti daha yaxşı idarə edib yönləndirə biləm.

Ön xəttə tərəf getməkdə idik. Getdiyimiz yerdə birdən başımızın üstündə İraq təyyarəsi peyda oldu. Tutulub qaldım ki, nə edim. Əl-ayağım bir-birinə dolaşdı. Təyyarə çox qorxulu şəkildə başımızın üstündə dolanırdı. Bu anda gözüm yolun kənarında böyük bir daşa sataşdı. Dərhal əyləci basdım ki, gedib o daşın arxasına gizlənək. Hacı soruşdu: Niyə durdun? Dedim: Hacı məgər təyyarəni görmürsən? İraqındır. Dedi: Yaxşı, olsun, məgər qorxursan? Dedim: İndicə bizi vuracaqlar, çox aşağıdan uçur. Əvvəlki aramlığı ilə dedi: ‘Lə hövlə və la quvvətə illa billah!’ Hərəkətə davam et! İtaət etməyə məcbur idim.

Təyyarə güllə atmağa başladı, bir neçə güllə də maşının arxasına dəydi və maşını deşdi. Hacıya baxdım və gördüm ki, aram və fikirsiz oturub. Üzündə heç bir stres müşahidə olunmur. Mən də onun Allaha olan təvəkkülündən ruhlanaraq yoluma davam etdim.



**Halal et**

**| Şəhidin xanımı |**

1982-ci ildə Hacı Himmət Əhməd Mutəvasilyan və Sepahın bir neçə digər uşaqları ilə birlikdə cənubun Pave və Məryəvan bölgəsinə getdilər. Bir həftə sonra da mənə məktub göndərdi ki, əşyalarımı yığım və cənuba getmək üçün hazır olum. Dəzful şəhərinə getdik və Hacının dostlarından birinin evinin ikinci mərtəbəsində yaşamağa başladıq.

Hacı əvvəllər evə gec gəlirdi, bununla yanaşı sübh çox tez gedirdi və demək olar ki, mən bütün günü evdə olurdum.

Bir dəfə 3 gün idi ki, evə gəlməmişdi. Şəhər çox sakit və aram idi. Yollar, küçələr də qaranlığa qərq olmuşdu. Gecə lampasının işığında tənha oturub kitab oxuyurdum. Birdən səs gəldi. Saata baxdım, gecə ikinin yarısı idi. Yerimdən qalxıb getdim qapını açmağa. Hacı qapının arxasında idi. Özü də necə bir vəziyyətdə-üzü, başı və paltarları toz-torpaq içində...

Çox yorğun idi və məlum idi ki, neçə gecədir yatmayıb. İçəri girdi və dedi: Xəcalətliyəm! Halal et... 1-2 həftədir səni gətirmişəm bura, neçə gün sonra da hal hazırkı halımla gəlmişəm evə...

Sonra birbaşa hamama getdi. Yadımdadır ki, o gecə isti suyumuz da yox idi və məcbur qalıb soyuq suyla yuyundu. Bütün bu uzaqlıq və çətinliyə Hacıya olan eşqimdən təhəmmül edirdim və mənim üçün kasıbçılığın da heç bir əhəmiyyəti yox idi. Sadəcə istəyirdim ki, onun yanında olam...



**Sabah yeyərəm**

**| Muhəmməd İbadi-Şəhidin dostu |**

Dokuh bölgəsinə yeni çatmışdı. Gecə saat ikinin yarısı idi. Toplantımız vardı. Yanında olan dostu dedi: Hacı hələ şam etməyib, toplantı başlamamışdan əvvəl əgər bir şeylər varsa gətirin Hacı yesin. Getdim və 2 boşqab paxla-plovla iki ədəd balıq gətirdim və Hacı ilə dostunun önünə qoydum.

Hacı söhbət əsnasında yeməyə başladı. İlk tikəni ağzına qoymaq istəyəndə soruşdu: Bəsicilərin şam yeməyi nə idi? Dedim: Həmin bu yeməkdən. Dedi: Həmin bu mənim üçün gətirdiyin yeməkdən? Dedim: Bəli, həmin bu sənin üçün gətirdiyim yeməkdən. Dedi: Balıq da var idi yanında? Dedim: Sabah günorta üçün balıq verəcəyik. Bunu ki, dedim, tikəni yerə qoydu və dedi: Mənə də sabah verərsiniz balığı. Dedim: Hacıcan! Allaha and olsun ki, sabah hamıya balıq verəcəyik. Dedi: Allaha and olsun ki, mən də sabah günorta balıqdan yeyəcəyəm. Hər nə qədər israr etsəm də faydası olmadı və o həmin gecə sadəcə paxla-plovunu yedi. Onun bəsiclərə qarşı ixlası və iradəsi o həddə idi ki, hətta az miqdar olsa belə süfrəsinin onların süfrəsindən daha rəngli olmasına razı deyildi...



**Arzuma çatdım**

**| Şəhid Məcid Ramazan |**

Bəsiclərin Himmətə olan məhəbbətini vəsf etmək imkansızdır. Onu bütün vücudları ilə sevirdilər və harada görsəydilər ətrafına dolanıb öpüş yağışına tuturdular. Əlbəttə ki, bu əlaqə qarşılıqlı idi və Himmətin ixlası bəsicilərin ona olan məhəbbətlərini daha da artırırdı.

Bir gün qərargahda onun yanında idik. Dedilər ki, bir yaşlı kişi Hacı Himmətlə görüşmək istəyir. Hər nə qədər Hacı məşğuldur desək də, kişi razı olmur və deyir ki, mən Hacını görməyənə qədər yerimdən tərpənməyəcəm. Onunla vacib işim var, mütləq görməliyəm onu, sonra gec olacaq. Ona bir şey verməliyəm, başqa birinə də verə bilmərəm, gərək Hacının öz hüzuruna gedəm.

Hamımız təəccüb etdik. Axı yaşlı kişinin Hacı Himmətlə nə işi ola bilərdi?!... Hər halda yaşına ehtiram etdiyi üçün Hacı gəlsin dedi.

Yaşlı adam otağa daxil oldu. Yaşı altımışdan çox olardı. Gözü Hacıya sataşan kimi ona tərəf qaçdı və bütün gücü ilə onu öpüb bağrına basaraq dedi: Budur! Bunu vermək istəyirdim. Aylardır arzulayırdım ki, üzünü yaxından görüb, öpəm. İndi arzuma çatdım və rahatlaşdım...



**Bəsicilərin aşiqi**

**| Höccət Nəsiri-Şəhidin dostu |**

Necə ki, bəsicilər Hacını çox sevirdilər, Hacı da şiddətli dərəcədə onlara aşiq idi. Onları öz övladı və qardaşı kimi sevirdi. Həmişə deyirdi: Mən bəsicilərin ayağının tozu belə ola bilmərəm. Kaş ki, mən də bəsici olardım. Heç vaxt onlardan ayrılmayaydım. Onlar elə bir kamil şəxslərdir ki, İmam Zaman (ə) hər zaman yanlarındadır.

İslam Şurası Məclisinin birinci seçkiləri idi. Qardaşı məntəqəyə gəldi və Hacıya dedi: Camaat istəyir ki, gəlib seçkilərdə namizəd olasan. Getmək üçün hazırlanmalısan. Hacı bir qədər gözlədikdən sonra dedi: Mən bəsicilərin alınlarına sərbənd bağlayıb ön xəttə getdikləri an mənimlə xudahafizləşmələrini heç nəyə və heç yerə dəyişmərəm. Ömrümün sonuna kimi də onların yanında qalacağam...



**Kişilik et, gəl!**

**| Şəhidin xanımı |**

1984-cü ilin qışı idi. Biz qərbi İslamabadda yaşayırdıq. İbrahim Tehrandan gəldi. Çöhrəsindən yorğunluq yağırdı. Məlum idi ki, neçə gündür istirahət etməyib. Bunu qırmızı gözlərindən anladım. Bununla belə mənə iş görməyə imkan vermədi. O zaman Mustafaya hamilə idim. İstədim deyəm ki, sən yorğunsan, otur yorğunluğun çıxsın. Amma möhlət vermədi və yerindən qalxıb süfrəni sərdi, yeməyi çəkdi, Məhdinin yeməyini verdi və nəhayət süfrəni yığdıqdan sonra iki çay da süzüb gətirdi ki, içək. Sonra da qarşısında biri varmışcasına söhbət etməyə başladı: Atanın çox işi var. Əgər bu gecə gəlməsən mən məntəqədə nigaran qalacağam. Gəl kişilik et və elə bu gecə mübarək qədəmlərini qoy. Bilmirəm ki, Hacı uşağın oğlan olacağını hardan bilirdi. Həmin gecə İmam Həsən Əsgərinin də mövlud gecəsi idi. Bir müddət keçmişdi ki, halım pisləşdi. Himmət dərhal hazırlaşıb bizi xəstəxanaya apardı və Mustafa həmin gecə dünyaya gəldi.

Evə gəldiyimiz an Hacı canamazını sərib şükr namazı qıldı. Otaqdan ağlamağının səsi gəlirdi. Eşidirdim ki, Allaha xitab edərək şükr edir. Növbəti gün məntəqəyə getməli idi, amma getmədi və bizim yanımızda qaldı. Çünki mənə kömək edəcək heç kim yox idi. İbrahim uşaqlara baxırdı və pərvanə kimi ətrafımızda dolanırdı...



**Namaz qılmağa gəldim**

**| Şəhidin xanımı |**

Müslüm ibn Əqil əməliyyatı ərəfəsi idi. Bir neçə gün əvvəl Hacı, hər zamanki kimi yorğun və halsız evə gəldi. Qış idi. Hacının şiddətli qaymoriti olduğu üçün dəhşətli dərəcədə başı ağrıyırdı. Namaz qılmaq üçün hazırlaşdı. Ona dedim ki, hələ bir duş al, yemək ye, sonra namaz qılarsan, yorğunsan. Mənalı baxışlarla mənə baxıb dedi: Mən bu qədər əziyyətlə özümü tez evə çatdırdım ki, namazı əvvəl vaxtında qılım, indi sən deyirsən ki, gedim yemək yeyim?!...

Yadımdadır, o qədər halı pis idi ki, namaza başlayandan ta bitənə kimi yanında durdum. Qorxurdum ki, birdən halı pisləşər və yıxılar. Hacı yorğun və halsız vəziyyətdə olmasına baxmayaraq, yenə də namazını əvvəl vaxtda qılmağı tərk etmirdi.



**Pulunu cibinə qoy**

**| Şəhidin atası |**

Anası, yoldaşı və övladı ilə birlikdə Hacını görmək üçün Əndiməşk şəhərinə getdik. Gecə gəldi və sübh tezdən də getdi. Mən də onunla birlikdə getdim. Müxtəlif yerlərə gedib baş çəkdik və sonunda anbara yetişdik. Anbarın içində təxminən 7-8 min cüt çəkmə və ayaqqabı vardı. Gözüm Hacının ayaqqabısına sataşdı. Gördüm ki, rusun 30 kiloluq ayaqqabısından geyinib, altına da gil və palçıq yapışıb. Onun bu ağırlıqda ayaqqabı ilə necə hərəkət etməsi mənə çox təəccüblü gəldi. Dedim: Hacı! Dedi: Bəli. Dedim: Get bu ayaqqabılardan birini geyin. Dedi: Bunlar bəsicilərindir. Yanımızda olan dostlarından biri güldü. Bu mənə pis təsir etdi. Amma sonra başa düşdüm ki, o nəyə gülürdü. Bir məsəl var; 'Hacı ağa, gec gəlmisən və tez getmək istəyirsən?!...' Onlar sən demə dəfələrlə İbrahimdən istəyiblər ki, ayaqqabısını dəyişsin, amma o bu işi görməyib. Dostlarından biri mənə dedi: Hacı ağa narahat olmayın. Bu anbarın hamısı Hacının ixtiyarındadır. Biz burda heç kimik. İstəyirsiz bütün ayaqqabıları verək Hacıya... İbrahim dedi: Bunların hamısı bəsicilərindir, başqa heç kimin malı deyil. Özünüzdən heç kimə heç nə bağışlaya bilməzsiniz. Dedim: Yaxşı, məgər sən özün bəsici deyilsən? Dedi: Yox, mənə aidiyyatı yoxdur. Dedim: Ümumiyyətlə mən pulunu verirəm. Əlimi cibimə saldım ki, pul çıxaram, dedi: Pulunu qoy cibinə, bu ayaqqabılar satılıq deyil. Hər nə qədər israr etsəm də faydası olmadı. Səhəri gün İbrahimin sürücüsü Hüseynə dedim: Hüseyn ağa, məni ayaqqabıçıya apar, İbrahimə ayaqqabı alım. Ürəyim tab gətirmir o 30 kiloluq ayaqqabını geyinsin...

Əndiməşkə gedib bir cüt ayaqqabı aldıq və gətirib maşına qoyduq. Onu gördüyüm zaman bölüyə getmək istəyirdi. Dedim: Mən də gəlim. Dedi: Gəl.

Sürücüsü ilə birgə bölüyə tərəf hərəkət etdik. Yolun kənarında bəsic uşaqlarından biri durmuşdu. Əl elədi, İbrahim sürücüyə dedi, saxla. Onu mindirdi və soruşdu: Hara gedirsən? Bəsici dedi: Mən İmam Hüseyn (ə) ordusundanam. Ayaqqabılarım paralanıb, gedirəm özüm üçün bir cüt ayaqqabı alım. İbrahim əvvəl öz ayaqqabılarını çıxarıb vermək istədi, amma gördü ki, çox köhnədir. Birdən mənim aldığım ayaqqabılara gözü sataşdı. Onları götürdü və bəsiciyə verərək dedi: Al, bu da ayaqqabı. Geyin gör ayağına olur? Mən Hüseynə baxdım, Hüseyn də mənə baxdı. Bəsici dedi: Pulu nə qədərdir? İbrahim dedi: Pulu lazım deyil, sahibini dua et. Dedi: Yox, mən bunu geyinməyəcəm. İbrahim dedi: Sənə deyirəm geyin, de ki, gözüm üstə. Bəsici dedi: Gözüm üstə.

Ayaqqabıları geyindi, ölçüsündə idi. Təşəkkür edib, dedi: O zaman məni burda düşürün daha. Düşürdük, xudahafizləşib getdi.

Düşəndən sonra İbrahim dedi: Mən əgər bu ayaqqabılardan geyinmək istəsəm, özüm alaram, pulum var. Bugünə qədər hələ ordunun, ya bəsicin paltarını götürməmişəm. Paltarlarımı öz şəxsi maaşım olan pulumla alıram. Mənim bəsicdən paltar alıb geyinməyim düzgün deyil. Mən maaş alıram, bir xərcim də yoxdur. Maaşın bir miqdarına paltar alıram və bir miqdarını da yoldaşımla uşağıma verirəm.



**Bunlar nə düşünürlər?!...**

**| Vəliyyullah Himmət-Şəhidin qardaşı |**

Hacı Şəhrzaya gəlmişdi. Ondan bir müddət öncə isə təhsil idarəsindən ona bir məktub göndərmişdilər. Amma o, məntəqədə olduğu üçün məktub hələ əlinə çatmamışdı. Münasib fürsəti görüb məktubu ona verdim. Məktubda yazılmışdı ki, əgər tez bir zamanda əvvəlki işi-müəllimliyə qayıtmasa, işindən azad olunacaq və aylıq maaşı kəsiləcək. Hacı Təhsil Nazirliyi tərəfindən Sepahda mə'murluq xidmətində idi və daim cəbhə bölgəsində olduğu üçün ona belə bir məktub gəlmişdi.

Himmət məktubu oxuyub bitirdikdə mənalı şəkildə güldü və dedi: Bunlar nə düşünürlər, bilinmir. Bilmirlər ki, biz ümumiyyətlə cəbhəyə gedərkən bütün hər şeyimizdən keçmişik?!...



**12-13 yaşlı bəsicilər**

**| Şəhidin xütbəsindən |**

Əməliyyat gecələri çox qəribə gecələrdir. Bəziləri bir guşədə əyləşib vəsiyyətnamə yazır, digərləri dua oxumaqla məşğul olur, başqa biri Allahdan şəhadət istəyir...

Bu gecələrdə çox qəribə səhnələr görülür. Çox əcaib və ağlamalı səhnələrdir. İnsan onların bu qədər güclü etiqadı və Allaha bu qədər ixlaslarının olmasına heyrətlənir. Xüsusən də çox pak və yüksək ruhiyyədə olan əziz könüllü bəsicilər...

“Vəl Fəcr-1” əməliyyatının gecəsi idi. Bu əzizlərin bir çoxu özlərinə qəbir qazırdılar və qəbrin içinə daxil olaraq Allahla razu-niyaz edirdilər. Sonralar biz araşdırdıq və bildik ki, alimlərin və ariflərin əksəriyyəti bu cür ediblər. Həm ölümdən qorxuları olmasın, həm də Allah etməmiş öz həvayi nəfslərinə uymasınlar. Onlar bu işi görməklə öz qəbirlərini və ölümlərini xatırlayırlar. Maraqlısı budur ki, bu könüllülərin bəzilərinin 13-14 yaşları var...

Onların ruhları çox böyükdür. Dua oxumaqlarında, sinə vurmaqlarında, Kərbəla-Kərbəla deməklərində, göz yaşı tökməklərində insana İslamın əvvəl vaxtlarında, Peyğəmbər zamanında cihada və şəhadətə eşqləri olan səhabələri xatırladır. Necə də şövqlə Allah yolunda vuruşurlar...

Maddiyat, güc-qüdrət düşünmədən, vəzifə, şöhrət, pul, məqam istəmədən... Onların gözlərində yalnız Allah var idi, vəssəlam....



**Özündən getdi**

**| Şəhid Əli Fərahani |**

Xeybər əməliyyatının 3-cü günü idi. Hacı Himmət bir iş üçün geri gəlmişdi. Fürsətdən istifadə edib zöhr namazını ona iqtida edərək qıldıq. İki namaz arasında, bir ruhani sıraya girdi. Hacı Himmət onu görən kimi xahiş edib istədi ki, öndə dayansın. O ruhani qardaş öncə qəbul etmədi, amma Hacının israrından sonra pişnamaz durdu.

Əsr namazından sonra dedi: İndi ki, azca vaxtımız var, bir neçə məsələni diqqətinizə çatdırım. O məsələni deməkdə idi ki, birdən səs gəldi. Bütün gözlər səs gələn tərəfə yönəldi. Hacı Himmət yorğunluq və yuxusuzluqdan özündən gedib yerə yıxılmışdı. Qardaşları onu dərhal təcili tibbi yardıma apardılar. Doktor Hacını müayinə etdikdən sonra dedi: Yuxusuzluq, yorğunluq, yemək yeməmək və zəif olmağı təzyiqinin düşməsinə səbəb olub, mütləq istirahət etməlidir. Bir dənə də sistem qoşdu. Halı biraz düzələn kimi Hacı yerindən qalxdı və xəstəxanada olduğunu görüb təəccüb etdi. İsrarla ayağa durmaq istəyirdi. Gedib mane olmaq istədik, amma faydası olmadı. Mən dedim: Hacı, öz halına baxmısan? Azca istirahət et, sonra gedərsən. Bədənin də istirahətə ehtiyacı var. Dedi: Yox! Olmaz! Mütləq getməliyəm. Sonra da sistemi qolundan çıxarıb getdi...



**Ordu komandirinin yuxusu**

**| Səid Möhtədi-Şəhidin dostu |**

Əməliyyat ərəfələrində yuxu və yemək nədi bilməzdi. Günorta 3-dən sübh 3-ə kimi iclas qurardı. Hamını bir-bir çağırıb yoxlayardı. Bəzi zamanlar gecə-gündüz heç yarım saatdan çox yatmazdı. Hətta bəzi vaxtlar 3-4 gün ard-arda oyaq qalardı.

“Xeybər-5” əməliyyatı günü onu axtarırdım, maşında tapdım. Dedim ki, səninlə işim var Hacı. Dedi gözlə, əvvəl namazımı qılım. Gözlədim namazını qıldı. Sonra fənər və xəritəni gətirdim ki, vəziyyətin nə yerdə olduğunu ona izah edəm. Fənəri yandırıb xəritənin üstünə tutdum və dedim: Karur buradan getdi, həmin bu nöqtədən, digərləri də... Ona tərəf baxdım və gördüm ki, başını aşağı gətirir, dedim Hacı, fikrin məndədir? Dinləyirsən? Özünə gəldi və dedi: Hə, hə de. Davam etdim. Bax Hacı Karur buradan... Bu dəfə gördüm ki, başı düşdü xəritənin üstünə və yatdı. Yatdığı halda ona dedim: Yox Hacı, hal hazırda sən yatmalısan. Yat, sabah izah edərəm...



**Sadəcə ağlayırdı**

**| Nüsrətullah Kaşani-Şəhidin dostu |**

Xeybər əməliyyatının ən ağır hissəsi ön xətti yarmaq idi. Bunu da Himmət və onun bölüyünə tapşırmışdılar. Xətti yarmaq olduqca çətin idi və birinci gecə mümkün olmadı. 6 gecə də ard-arda hücum etdilər və müvəffəq ola bilmədilər. Bütün yük Himmətin boynunda idi. Həm yuxarıdakı döyüş məs'ulları, həm də bölüyü onu çox sıxıntıya salmışdı...

Altıncı gecə əmr edildi ki, gərək  ortadan hücuma keçilsin. Bu iş mümkünsüz idi. Bunu Himmət özü də bilirdi. Amma əmri bölüyə bəyan etdi. Onlar dedi: Məgər görmürsən vəziyyət necədir? Ora atəş içindədir, biz getmirik. Hacının ürəyi dolmuşdu və ağlayırdı. Dua edirdi ki, o an bir güllə dəysin ona və ölsün. Deyirdi: Görürsən? Artıq nə yuxarıdakılar məni dinləyir nə də aşağıdakılar...

Mən ona biraz təsəlli verdim. Yuxarıdan xəbər gəldi ki, əgər xətti yara bilmirsənsə geri çəkil, İmam Hüseyn (ə) ordusu bunu edəcək. İmam Hüseyn ordusu Şəhid Hüseyn Xərrazinin rəhbərliyi altında irəlilədi və xətti yardı. Düzdür ki, onlar da günortadan əvvəl geri çəkildilər, amma hər halda, bu söz Hacıya toxunurdu; 'Əgər olmurdusa, necə Hüseyn Xərrazi bu işi edə bildi?!...'

Hacı qəribə olmuşdu, yol gedə-gedə öz-özünə danışıb ağlayırdı. Ona dedim: Ağlama İbrahim, uşaqların yanında yaxşı deyil. Dedi: Yox, sən və ümumiyyətlə heç kim bilə bilməzsiniz ki, mənim ürəyim nə çəkir. Dedim axı ağlamaqla da iş düzəlmir. Dedi ki, hətta ağlamaq belə məni rahatlaşdırmır, amma bundan başqa əlimdən də bir şey gəlmir.



**313 nəfər**

**| Muhəmməd Rza Pərvazi-Şəhidin dostu |**

Hacı Himmət mənə zəng edib dedi: Hacı ağa, lütf edib özünüzü təcili Dokuha çatdırın, sizinlə işim var. Məndə gecikmədən tez getdim.

Hacı Himmətin yanına gedib kef-əhval tutduqdan sonra dedim: Nə olub Hacı? Dedi: Mən camaatdan bir qədərini toplayıb növbəti əməliyyata qədər onlara biraz təlim öyrədəcəm. Dedim: Yaxşı, salamatçılıq olsun, bəs bunun mənlə nə əlaqəsi? Dedi: Təlim dedikdə məqsədim hərbi təlim deyil, mən istəyirəm bunlara etiqad təlimi verəm. Keçən əməliyyatdan bu nəticəyə gəldim ki, kimin etiqad baxımından ruhiyyəsi güclüdürsə, o kəs hərbi təlimləri bilən kəsdən daha daha yaxşı döyüşür və məqamı da daha yuxarıdır...

O mənə kiçik bir kağız verdi və kağızda belə yazılmışdı; 'Ağa İmam Zaman (ə) və o Həzrətin 313 sərdarı barəsində lütf edib lazım olan hədis və dəlilləri toplayarsınız. Vəssəlam. Hacı Himmət'.

Hacı Himmət tabordakı əsgərlərin sayını da 313 nəfər etmək istəyirdi.



**Sonuncu moizə**

Xeybər əməliyyatının 10-cu günü, Fəth qərargahı komandirlərinin əmri ilə “qızıl ox” əməliyyatı dayandırıldı və ordu Dokuh məntəqəsinə yerləşdirildi. Himmət isə əmrləri icra etməyə məşğul olduğu üçün əməliyyat bölgəsində qaldı.

Ayın 14-ü günortadan sonra o da məntəqəni tərk edərək Dokuh düşərgəsinə gəldi. Əkbər Zəcaci onu qarşılamağa getdi və dedi: Hacı, dadımıza yetiş. Əsgərlər yorulub. Bir tərəfdən də mə'muriyyət zamanları bitib deyə şəhərlərinə geri dönmək istəyirlər. Hacı Himmət bu xəbəri eşidəndən sonra çox pis oldu. Çünki əsgərlər şəhərlərinə qayıtsaydılar güc itirəcəkdik.

O, qüvvələri Dokuh meydanına yığdı və Məğrib ilə İşa namazının arasındakı fasilədə atəşli bir moizə edərək dedi:

-Bizim nəyimiz varsa şəhidlərdəndir və inqilabımız bu əzizlərin tökülən qanının bəhrəsidir. Tarixin hansısa dövründə, hər hansı müharibədə, kimsə deməyib ki, bu əməliyyat 100 faiz qələbə çalacaq ya yox. Hətta peyğəmbər belə müharibədə demirdi ki, qələbə olacaq ya yox. Mühüm olan bir məsələ var, o da Allah yolunda hərəkət etmək. Uca Allah uduzdurar da, qələbə də nəsib edər. Əsas məsələ ona etiqadımızdır. Biz zəifik. Əməliyyat bizim əlimizdə deyil ki, asan ya çətin olmasına qərar verək. Bizim baxışımız maddidir, amma mübarizəmizin altında mənəviyyat yatır. Biz bu müharibəni qanımızla irəli aparacağıq!

Bu moizə Hacı Himmətin şəhadətindən əvvəlki sonuncu moizəsi idi. Qayıtmaq istəyən əsgərlər bu moizədən sonra nəmli gözlər və əzəmətli qədəmlərlə yenidən döyüş meydanına tərəf addımladılar...



**Salam olsun bu simalara**

**| Səid Möhtədi-Şəhidin dostu |**

Düşərgədən əmr gəldi ki, Muhəmməd ləşgərindən iki taboru, yəni, Həbib ibn Məzahir və Malik Əştər taborlarını cənub zonasına göndərək. Əmr yerinə yetirildi, amma onların halı çox pis idi. Yemək çatmırdı, ordunun ruhiyyəsi aşağı düşmüşdü, bir tərəfdən də yuxarıdan göstəriş gəlmişdi ki, kimsə qayıtmaq fikrinə düşməsin. Gərək sonuncu gülləyə qədər hər kəs qalıb vuruşsun.

Hacı Himmət onlara baş çəkmək qərarına gəldi. Mən də onunla birgə getdim. Bəsicilər Himmətin gəldiyini görüb çox sevindilər və onun yanına gəldilər. Hacı hal-əhval tutduqdan sonra onlara belə xitab etdi: Əsgər qardaşlar, imanlı bəsicilər, salam olsun toz olmuş bu çöhrənizə, salam olsun şərəf və iradənizə. Burada çətinlik, yaralanmaq, əl-ayağın parçalanması, əsir düşmək, itkin düşmək və şəhid olmaq var. Bunları hər birimiz bilirik. Amma əzizlər, biz unutmamalıyıq ki, bu yola hansı hədəf üçün qədəm basmışıq. Biz Allah yolunda cihad üçün buradayıq. Biz bu ikisindən birini seçməliyik; Ya təslim və zillət bayrağını əlimizə alaraq İmamın sözünün yerə düşməsinə bais olmalıyıq, ya da son nəfəsimizə kimi mərdliklə döyüşüb şəhid olmalıyıq və bu çətin imtahandan izzətlə çıxmalıyıq. İndi əziz bəsicilər mənə deyin, nə edək? Təslim olaq, ya son nəfəsimizə kimi döyüşək?

Allah şahiddir ki, Himmətin sözü bu nöqtəyə çatanda bəsicilər ağlayaraq fəryad edib, döyüşəcəyik, öləcəyik, təslimiyyəti qəbul etməyəcəyik deyirdilər və sonra hamısı Hacıya tərəf qaçaraq onu qucaqladılar...



**Hacı gəlmədi**

**| Səid Möhtədi-Şəhidin dostu |**

Xeybər əməliyyatında Hacı səngərdə idi və ön xətt ilə arasında bir kilometrdən çox məsafə yox idi. Yeri kombaynla qazıb üzərinə tikanlar tökmüşdülər və adını da səngər qoymuşdular. Biz də ön xətdə idik və Hacıyla əlaqə saxlayırdıq.

Vəziyyət bucür davam edirdi ki, birdən Hacı mənə zəng edib dedi: Bu gecə İmam Hüseyn (ə) ləşgəri bura gəlməlidir, onlar üçün yol göstərənlik edə bilərsənmi? Dedim: Mütləq. Dedi: Onda qürub vaxtı gəl səngərə, sənin özünə də gərək yol izah edilə, həm də səninlə biraz işim var. Dedim: Yaxşı, gözüm üstə. İndi hara gedirsən? Dedi: İndi Abbasın yanına gedirəm, deyəsən nəsə problemi var, bəlkə köməyim dəydi.

Xeybər əməliyyatında mən və Hacı idarənin ətrafında idik. Abbas və Kərimi də şərq tərəfdə idilər. Hacı mənimlə söhbət etdikdən sonra Qasim Süleymaninin arxasınca getdi və Qasim Süleymaninin müavini olan Həmid Mirəfzəlini də götürüb motosiklet ilə şərq tərəfə yollandı.

Gecə olmuşdu, amma Hacı hələ də gəlməmişdi. Öz-özümə dedim: Mənə gecə səngərə gəl demişdi. Mütləq gəlib, görüb yoxam, gedib. Getdim Qasim Süleymaninin yanına, Hacını soruşdum dedi ki, bura gəlməyib.

Bir motosiklet götürüb şərq tərəfə getdim. Abbas Kərimi və digər uşaqların yanına çatıb, dedim: Hacı bura gəlməyib? Abbas Kərimi dedi yox. Dedim: Sizə kömək etmək üçün yanınıza gəlirdi. Dedi: Böyük bir problem yox idi, kiçik atışma oldu, vəssəlam. Dedim: Abbas, deyəsən Hacıya nəsə olub. Dedi: Necə belə bir şey düşünə bilirsən? Dedim: Hacı harasa getmək istəsə mənə mütləq xəbər edərdi...



**Başsız bədən**

**| Möhsün Pərviz-Şəhidin dostu |**

Hacı mənə görməli olduğum bir iş tapşırmışdı. Əmri icra etdikdən sonra Rza Pənahəndi ilə öz bölüyümüzə getdik. Qayıdan zaman küçədə 2 şəhid cənazəsi gördük. Onlardan birinin başı yox idi və yolun ortasında qalmışdılar. Pənahəndiyə dedim: Gəl bunları yoldan kənara çəkək ki, üstlərindən maşın keçməsin. Başsız şəhidin üzərində mavi forma var idi. Onları yolun kənarına çəkib bölüyə döndük.

Himməti axtarırdım ki, gördüyüm işi təhvil verim. Səngərdə yox idi. Uşaqlardan biri gəlib dedi: Hacını görməmisən? Dedim: Mən də onu axtarıram, amma yoxdur. Dedi: Öz aramızda qalsın, deyəsən Hacı şəhid olub... Sanki elektrik vurdu məni. Birdən-birə yolda olan şəhid yadıma düşdü. Həm üst forması Hacının formasına oxşayırdı, həm də əsgər şalvarı. Rza Pənahəndiyə dedim: Rza, gəl gedək! Olmaya yolun ortasında gördüyümüz o şəhid Hacıdır. Motosikletə minib getdik həmin yerə. Amma, o şəhidlərdən daha əsər-əlamət yox idi. Onları aparmışdılar. Bölüyə qayıtdıq. Donub qalmışdıq ki, nə edək. Heç kim də yox idi ki, ondan nəyisə xəbər alaq, ya da işi araşdıraq. Bir gün heç nə etmədən orda qaldıq və ikinci gün xəbər verdilər ki, Hacı şəhid olub, amma cənazəsini tapa bilmirlər. Mən və Hacı İbadiyana Hacının cənazəsini tapmaq vəzifəsini tapşırdılar. Əhvazın şəhidlər xiyabanına gedib axtarmağa başladıq. Mənim yadımda iki nişan qalmışdı-biri Hacının qəhvə rəngdə olan alt köynəyi və digəri də qələm fənəri idi ki, həmişə köynəyinin cibindən asırdı. Axtarış zamanı gəlib həmin yolda gördüyümüz başsız şəhidə çatdıq. Tez köynəyinin düymələrini açdım. Həm altdan geyindiyi köynək qəhvəyi rəngdə idi, həm də qələm fənəri köynəyindən asılı idi...



**Necə şəhid oldu**

**| Məhdi-Şəfazənd-Şəhidin dostu |**

Motosikletimizə minib yola düşdük. Hacı Himmət və Mirəfzəli öndə, mən də arxalarınca gedirdim. 2-3 metr fasiləmiz var idi. Hacının getmək istədiyi yer, yolun aşağısında idi və oraya getmək üçün məcbur idik ki, torpaq yoldan keçək. Bu iş motosikletin sürətinin azalmasına səbəb oldu. İraqlılar da həmin torpaq yolun mərkəzini açıq aydın görürdülər və yolun mərkəzinə tank yerləşdirmişdilər ki, maşın ya motosiklet keçsə, həmin dəqiqə vursunlar. Hacı Himmət motosikleti torpaq yola çəkdi. Mən də arxalarınca gələ-gələ dedim: Hacı burada qaza bas. Hacı qaza basdı və elə həmin an partlayış səsi gəldi. Mənimlə Hacı Himmətin motosikletinin arasında qəliz duman peyda oldu. Partlayış nəticəsində mən bir küncə düşüb qalmışdım və bir neçə an şokda oldum.

Tüstü, toz və torpaq çəkildikdən sonra gördüm ki, motosiklet yolun sol tərəf istiqamətinə düşüb və 2 cənazə də yerdə qalıb. Sonra yadıma düşdü ki, Hacı Himmətlə Mirəfzəlinin motosikletləri məndən öndə gedirdi. Cənazələrə tərəf getdim. Birincisi üzü üstə düşmüşdü. Döndərdim, bütün bədəni salamat idi, amma sol əli ilə başı yox idi. Partlayış başını tamam aparmışdı. Ümumiyyətlə tanınmaz halda idi. İkincisinə tərəf getdim, inana bilmirdim, Mirəfzəli idi. Soyuq tər alnımı basdı...



**Ləyaqətli övlad**

**| Şəhidin atası |**

İbrahim deyirdi: Mən Məkkədə Allahdan istədim ki, nə yaralı olum, nə də əsir düşüm. Allahdan sadəcə şəhadət istədim. Anası dözməyib deyirdi: Ana qurban, axı bu nə sözlərdir deyirsən? Niyə bizə əziyyət edirsən? Deyirdi: Yox anacan, ölüm haqdır və sonunda hər birimiz bu dünyadan getməliyik.

Bu sözü mənim yadımda qalmışdı. Bir gün qardaşı Vəliyyullah gəlib dedi: Günorta xəbərlərə qulaq asdınız? Dedim: Yox, nəsə olub? Dedi: İbrahimdən nəsə bir xəbər filan var? Dedim: Yox, niyə ki? Dedi: Deyirlər İbrahim yaralanıb. Yaralanıb deyən kimi bildim ki, şəhid olub. O gün dediyi o söz həmişə yadımda idi və bilirdim ki, Allah onun ixlasına xatir duasını qəbul edəcək. Evə gəlib xəbər verdim. Anası ağlar halda dedi: Yadına gəlirmi bu uşağı 3 aylığında kim bizə verdi? Bir uca boy xanım-Hz.Zəhra (s.ə). Bu uşaq İmam Hüseynin (ə) hədiyyəsi idi. Həmin o gün bizə bu uşağı verən kəs, bu gün də 29 yaşında onu bizdən aldı. Sonra da dedik: ‘İnna lillah və inna iləyhi raciun’. (Biz Allahdanıq və Ona sarı qayıdacağıq)

Allah bizə elə bir ləyaqətli övlad bəxş etdi ki, həmişə bizim baş ucalığımız oldu və biz həmişə bu nemət üçün Ona xəcalətli və şükür edən olacağıq.




**Vəsiyyətnamə**

**| Birinci hissə |**

Mehriban və rəhmli Allahın adı ilə...

Nəyimiz varsa şəhidlərdəndir və inqilabımız şəhidlərin qanının bəhrəsidir. 1981-ci il, gecə saat 10:10-da bir neçə kəlmə vəsiyyətnamə yazıram.

Hər gecə yerdən bir ulduz çəkib aparırlar və yenə də bu qəmgin səma ulduzlara qərq olub.

Anacan, səni çox sevdiyimi bilirsən və bilirsən ki, övladın şəhadətə və şəhidlərə necə aşiqdir.

Ana, cahil hökümətlər insanları həmişə fitnəyə çəkib və toplumlar bu cəhalət içində əsir olublar. Bəlkə də əsrlər keçməlidir ki, sülaləsi pak olan biri gəlsin və bu azğın cəmiyyətlər üzərində rəhbərliyi ələ alsın ki, insanları ilahi qanunlara doğru aparıb, idarə etsin...

İmami-Rahil bu fitnəli yolları dəyişənlərin, imamət, cəsarət və şəhadət yolunun davamçılarının sülaləsindəndir.

Anacan, mən İmamın bir göstərişi ilə ölümə hazıram. Onun islamın fəthi üçün ilham verici sözü mənim sinəmdə və vücudumda yer alıb. Əgər şəhidlik iftixarı qismətim olsa, imamdan istəyin ki, mənim üçün dua etsin. Bəlkə Allah əzəmətli dərgahında mən üzü qaranı şəhid qismində qəbul edə...

Anacan, mən laqeyd insanlara nifrət edirdim və edirəm də. Təəssüf ki, cavanların çoxu dindən xəbərsizdir və nə üçün yaşadıqlarını, hədəflərinin nə olduğunu ümumiyyətlə bilmir. Belələri çoxdur. Kaş ki, özlərinə gələydilər.

Mənim tərəfimdən cavanlara deyin ki, şəhidlərin gözü və axan qanları sizə dikilib. Ayağa qalxın, özünüzü və islamı irəli aparın. Bizim islam inqilabından heç yerdə tapılmır, nə şərqdə, nə də qərbdə...

O islam ki; O islam ki...

Vay! Kaş aldadıldıqlarından xəbərsiz olan bu millətlər özlərinə gələydilər və onlar da təkəbbürlü hakimlərinin burunlarını yerə sürtəydilər.

Anacan, bizim cəmiyyət təzə inqilab edib. İllər keçməlidir ki, beyinlərdəki bütün qeyri-əxlaqi sifətlərin kökü qazınsın. Amma bizim bəzi "müasirlər" bu inqilaba çoxlu zərbələr vurdular. Nə inqilabı tanıdılar və nə də onun üçün hansısa zəhmət çəkdilər. Hər tərəfdən bu yenicə dirçələn azadlığa zərbə vurdular. Amma Allah qüdrətlidir. Əgər hidayət olmasalar cəzalanacaqlar!

Ata və anam, mən yaşamağı sevirəm, amma özümü unudacaq, itirəcək qədər bağlılığım yoxdur bu həyata. Əli kimi yaşayıb və Əli kimi də şəhid olmaq, Hüseyn kimi yaşayıb və Hüseyn kimi də şəhid olmaq istəyirəm. Bir möminin ən böyük arzusu həva və həvəsinə qalib gəlməkdir və mən də bu arzu ilə yaşayıram. İslam nəzəriyyəsində şəhidlik, zülm və sitəmə, şirk və küfrə ən böyük zərbəni vurub və vuracaqdır. İslam tarixi bunu təsdiq edir.

Ata, biz sabah islam dininin qanunlarını bilməyən kəslərlə döyüşməyə gedirik. Onlar bizimlə niyə və nə üçün döyüşdüklərini belə bilmirlər. Biz demokratlarla, yaxud həqiqətdə Səddam rejiminin əlində alətə çevrilmiş Bağdad, İraqla döyüşürük...

Gör biz nə hala düşmüşük və müstəmləkəçilik cəmiyyətləri nə qədər fitnələrə çəkib... Amma çarə yoxdur. Bunlar islam inqilabının hədəfinə çatmaq üçün keçməli olduğumuz yollardır. Gərək bu yollar keçilsin ki, kamil yola qədəm qoyaq.

Anacan, Allaha and olsun əgər ağlasan səndən əsla razı olmayacağam. Hz.Zeynəb kimi yaşa və bizi də Allaha tapşır. İlahi! Sənin yolunda şəhadət tofiqatı ver bizə...

İslam mübarizə və cihad dinidir və bu yolda imana, əziyyətə, səbrə və dözümlülüyə ehtiyac var.

Bacım, qardaşım və həmçinin atam! Məni bağşlayın! Sizlərdən istəyirəm ki, yolumu davam etdirəsiniz.

Vəssəlam.

Muhəmməd İbrahim Himmət.

Saat; 12:15. Sepahın təhqiqat otağının salonu.

**Vəsiyyətnamə**

**| İkinci hissə |**

Mehriban və rəhmli Allahın adı ilə...

Arzusu, vüsalı hər zaman beynimdə olan, heç vaxt vücudumdan ayrı olmayan o ad; Salam olsun şəhidlər sərvəri, bəşəriyyətə nümunə olan İmam Hüseynə (ə.s).

Dəyərli ana və mehriban yoldaşım, əziz atam və qardaşlarım. Allahın salamı sizə olsun. Heç vaxt Allah yolundakı hərəkətlərimə mane olmadınız. Siz nə qədər səbrlisiniz. Özünüz bilirsiniz ki, mən şəhidlərə nə qədər eşq bəsləmişəm. Necə ki, göyərçinlər hər zaman səmaya meyl edərlər...

Nümunəvi və səbrlilərin etiqadları var ki, canlarını verib əbədi həyatı və Allaha yaxınlıq mükafatını alacaqlar. Necə ki, Quran deyir: "Allah, Onun yolunda vuruşub öldürülən möminlərin canlarını cənnət müqabilində satın almışdır”...

Mən də öz canımı əsirgəməyəcəm. Özümü qəfəsdə məhbus görürəm və istəyirəm ki, bu qəfəsdən çıxam. Tikanlı simlər mane olur. Mən bu dünyada məni Allahdan kənar salan hər şeyə-hiyləgər dünya və maddiyata nifrət edirəm

Müharibədə şəhid olan qardaşların şəhadətlərindən əvvəl çöhrələrində qəribə bir nur olurdu. Həmin nurdan məlum olurdu və ətrafdakı hər kəs bilirdi ki, onun şəhidlik növbəsi çatıb..

Əzizlərim, bu ikinci dəfədir ki, vəsiyyətnamə yazıram. Amma şəhidliyə ləyaqətim yoxdur və məlumdur ki, hələ də ixlaslı deyiləm. Deməк ki, bir müddət də bu əsarətdə qalacağam. İnqilab başlayan zamandan bu yoldayam və inqilabdan sonra Sepahı mübarizə üçün özümə ən yaxşı pənahgah bilmişəm. Əvvəl Şəhrzadakı ziddi-inqilab və xainlərlə mübarizə, sonra Xuzistan və Xorrəmşəhr, daha sonra Sistan və Bəlucistan və nəhayət Kürdistan... Artıq 2 ildir ki, Kürdistandayam. Sanki müharibənin xəmiri mənimlə bir yoğrulur.

Allah bu günahkara lütf edərək Öz yolunda mübarizə aparmağı nəsib etdi. İndi isə vüsal dünyasına və Məşuqa qovuşmağa gedirəm. Ey əzizlərim mənə diqqət edin.

1-Əgər Allah mənə övlad qismət etsə, ürəyim istəyir ki,  Əli (ə) kimi böyüdəsiniz. Yoldaşım səbrlidir və Hz.Zeynəbə eşqi sonsuzdur. O övladımı düzgün tərbiyə etməkdən zövq alacaq. Çünki, yolunu tapıb. Əgər oğlan dünyaya gətirsə adını Məhdi, qız dünyaya gətirsə adını Məryəm qoyarsınız. Çünki yoldaşım bu adları xoşlayır.

2-İmam, səfa məzhəri, paklıq, ixlas və mərifət dəryasıdır. Onun buyurduqlarını hərfiyyən yerinə yetirin ki, Allah da sizdən razı qalsın. Çünki o Vəliyyi-Fəqihdir və Allah yanında yüksək məqamı vardır.

3-Nə qədər pulum varsa, əvvəl Tehranda Sepah ilə əlaqə yaradın və Məkkə ziyarətinə qalan borcumu verin, qalanını isə yoldaşım necə istəyir, elə də xərcləsin

4-Bu millət, Qurandakı möcüzələrindəndir və mənim millətə tapşırığım həmişə şəhidlərin yolunu getmələridir. Allahın dərgahına dönün və bu inqilabı Hz.Məhdinin (ə.f) inqilabına birləşdirin. Bu tələşla iş görmək, Allahın mömin bəndələrinin sifətlərindəndir.

5-Anam, yoldaşım və bütün qohumlarım! Mənə görə dözümsüzlük etmənizə razı deyiləm. Məni Allaha tapşırın. Səbrli və şücaətli olun.

Həqir Hacı Himmət-1983